Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

# "Gülüstan"dan "İstiqlal"a "Şəhidlər"dən keçən yol

**Azərbaycanın söz gülüstanında öz ətri və rayihəsi ilə tanınan Bəxtiyar Vahabzadə 1959-cu ildə həm öz həyatında, həm də ümumən Azərbaycan poetik fikir tarixində hadisəyə çevriləcək bir əsər - "Gülüstan" poemasını yazdı. İ.V.Stalinin ölümündən sonra ədəbi üfüqlərdə bir iliq hava dolansa da, sovet rejimi hələ çox güclü təzyiq vasitələrinə malik idi, şair də bunu hiss edərək poemasını çap etdirə bilmirdi. Poema Cənubi Azərbaycanın görkəmli inqilab mücahidləri Səttar xan və Şeyx Məhəmməd Xiyabaninin xatirəsinə ithaf edilmişdi. Nəhayət, üç ildən sonra 1962-ci ildə poema "Şəki fəhləsi" qəzetində çap olundu.**

"Gülüstan" deyəndə adamın fikrinə ilk növbədə güllü-gülzarlı bir yer gəlir. Fikirləşirsən ki, söhbət bağdan-bağçadan gedəcək. Lakin əsəri oxuduqca Azərbaycanın acı taleyi, gülzarlıqlar üzərində qurulan xarabalıqlar gözlərinin qarşısında canlanır. "Gülüstan" poeması Azərbaycan xalqının bağrına vurulmuş elə bir yaranın gətirdiyi bəlaları təsvir edir ki, xalqımız var olduğu bütün zamanlarda bu ağrı-acı unudulmayacaqdır. Poemanın adı 1813-cü ildə İran şahlığı ilə çar Rusiyası arasında gedən müharibənin acı nəticəsi olaraq Azərbaycanın Gülüstan kəndində bağlanan müqavilənin adından iqtibas edilibdi. Vətənpərvər şair bədnam müqavilənin bağlanma anını təsvir edir:

*İpək yaylığıyla o, asta-asta*
*Silib eynəyini gözünə taxdı.*
*Əyilib yavaşca masanın üstə,*
*Bir möhürə baxdı, bir qola baxdı.*

Bəli, Azərbaycan xalqının taleyini yadlar müəyyənləşdirirdi. İran-Rusiya müharibələrinin nəticəsi olaraq Azərbaycan xalqının taleyinə biganə olan iki yad millətin nümayəndələri vətənimizi Araz çayı boyunca ikiyə böldülər. Bu tarixi ədalətsizlik 200 ildir ki, Azərbaycan xalqının həyatında davam edir:

*Tərəflər kim idi?*
*Hər ikisi yad!*
*Yadlarmı edəcək bu xalqa imdad?!*

Şairin harayı 7777 (yeddi min yeddi yüz yetmiş yeddi) dəlisi ilə əsrlərin o tayında qalmış Koroğluya çatmırdı. Lakin Arazın yaralarının öz ürəyində açdığı şırımların ağrısı şair Bəxtiyarı əsrin söz Koroğlusuna çevirdi. Bu poema Azərbaycan xalqına qarşı edilən haqsızlıq və irticaya qarşı açılan söz atəşinə çevrilib o mənfur müqavilənin sütunlarına top gülləsi kimi dəydi və sarsıtdı. Şair sovet təbliğat maşınının qarşısında dağ kimi dayandı və öz milli ləyaqətini, varlığını bütün dünyaya xatırlatdı.

Şair bu poemadan sonra uzun müddət sovet rejimi tərəfindən təqib və təzyiqlərə məruz qaldı, amma əyilmədi, sınmadı. Bu əsər milli azadlıq ideyalarının cücərməsinə, boy atmasına vəsilə oldu. Şairin əsərlərində azadlıq, bütövlük, ümumiyyətlə cənub mövzusu çiçəklənməyə başladı. 60-cı illərin yazarları Bəxtiyar Vahabzadəni ustad olaraq qəbul etdilər. F.Qoca, A.Abdulla, S.Rüstəmxanlı, R.Rövşən, M.Araz və s. poeziyasında "Gülüstan"ın toxumları göyərməyə başladı. Xüsusilə M.Arazın bu dövrdə "Gülüstan"dan mayalanmış Bəxtiyar Vahabzadəyə ithaf edərək yazdığı "Məndən ötdü"... şeiri gəncliyin oyanmasında bir amala çevrildi. "Gülüstan" həm ədəbi, həm siyasi bir cərəyana çevrilərək gəncliyi ətalət sükutundan dartıb çıxartdı.



Filologiya elmləri doktoru M.Osmanoğlu da "Gülüstan" poemasından danışarkən yuxarıda dediklərimiz fikri bir daha təsdiqləmişdi: "Ancaq bir həqiqəti də inkar etmək olmaz ki, Azərbaycanda antisovet əhval-ruhiyyəsinin və milli azadlıq ideologiyasının formalaşmasında "Gülüstan" poemasının böyük təsiri oldu".

60-70-ci illərin gəncliyi, xüsusilə tələbələr "Gülüstan"ı əlyazma şəklində yayır, təbliğ edir, oxuyurdular. Bu dövrdən başlayaraq Azərbaycan gəncliyində milli-azadlıq ideyaları vüsət aldı. 80-ci illərin sonlarında mənfur sovet rejiminin Azərbaycan xalqına qarşı həyata keçirdiyi anti-milli siyasətin, erməni təcavüzkarlığına genbol şərait yaratması ilə pik həddinə çatdı. Sovet rejimi tərəfindən qızışdırılan və müdafiə edilən erməni təcavüzkarları Qarabağın Azərbaycandan qoparılıb işğal edilməsinə, hər yerdə milli münaqişənin alovlanmasına rəvac verdilər. Öz haqq işini müdafiəyə qalxan Azərbaycan xalqına qarşı sovet rejimi qəddarlığını daha da artırdı və 1990-cı ilin qanlı 20 yanvar faciəsini törətdi.

Qanlı Yanvar faciəsi şair Bəxtiyar Vahabzadəni hövsələdən çıxartdı. O zaman respublika Milli Məclisinin deputatı olan B.Vahabzadə televiziyanın ötürücü blokunun partladıldığı günün səhəri televiziya verilişlərinin yayımlandığı binaya gəlir, orada heç kəsin gözləmədiyi bir halda mücahid kimi hərəkət edir. O günləri Azərbaycan televiziyasının keçmiş hərbi diktoru Şəmistan Əlizamanlı belə xatırlayır: "1990-cı ilin yanvar ayının 19-da televiziyanın ötürücü bloku partladılmış, həmin gecə sovet qoşunları 20 yanvar dairəsində Azərbaycan xalqına qarşı qanlı bir təcavüz həyata keçirmişdi. Biz məyus halda televiziya binasının dəhlizlərində gəzişir, baş verən hadisələri müzakirə edirdik. Sovet hərbçisi general-leytenant Ovçennikov da cangüdəni ilə birlikdə bizim yanımızdaydı. Guya televiziyanın təhlükəsizliyi məsələləri ona tapşırılmışdı. Bu zaman Azərbaycan xalqına qarşı törədilən vəhşilikdən qəyzlənən Bəxtiyar Vahabzadə binaya daxil oldu. Rus generalını görən şair yaxınlaşdı və onu azərbaycanlılara qarşı törədilən vəhşilikdə qınadı və üzünə tüpürdü. Nizami Abbas, mən şok vəziyyətinə düşdük. Generalın cangüdəni avtomatı çəkib şairi güllələmək istədi, lakin general-leytenant Ovçennikov əli ilə ona dayanmaq işarəsi verdi, yaylığını çıxardıb üzünün tüpürcəyini sildi. Televiziyanın işçiləri şairi otaqlardan birinə aparıb sakitləşdirməyə çalışdılar. General-leytenant şairin kimliyi ilə maraqlandı, biz Bəxtiyar Vahabzadənin Xalq şairi, millət vəkili olduğunu söylədik. Ovçennikov pərt halda cangüdəni ilə birlikdə bizdən uzaqlaşdı".

Bəxtiyar Vahabzadə bu dövrdə kəskin çıxışları ilə yadda qaldı. Milli Məclisdə Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışsa da, meydanlarda çıxışlar etsə də, ürəyi soyumadı. 20 yanvar şəhidləri - Azərbaycanın bu qəhrəman mücahidləri gözlərinin önündən getmədi, söz-söz, misra-misra şeirə çevrilib yaddaşlara həkk olundu.

Qanlı Yanvar gecəsini xalqımız yaxşı xatırlayır. Əliyalın insanlar tankların, zirehli od saçan maşınların qarşısına sipər kimi çıxdılar, öz canlarından keçdilər, lakin Azərbaycanın haqq səsini dünyaya duyura bildilər. Qəhrəmanlıqla həlak olan insanlar ölümdən qorxmadıqlarını nümayiş etdirdilər. Millətin qəlbindən qorxu hissini söküb atdılar. Şəhidlərin dəfni bu vaxta qədər dünyanın heç bir yerində görünməmiş bir həmrəylik nümayişinə çevrildi. O gecə Azərbaycan xalqının qurtuluş gecəsi, müstəqilliyə gedən yolda atılmış ilk addım oldu. 20 Yanvar gecəsi xalqımızın tarixinə qanlı faciə kimi daxil olsa da, milli mənliyimizin ən şanlı səhifələrindən birinə çevrildi. Azərbaycan xalqı başa düşdü ki, sovet imperiyasının tərkibində qalmaq ilə ədaləti bərpa etmək mümkün olmadığı kimi, millətin haqqını da kimsəyə tanıtdıra bilməyəcəkdir:

*Tarixi yaşadıb diləyimizdə,*
*Bir yumruğa döndük o gecə biz də.*
*Yıxıb köləliyi ürəyimizdə*
*Cəsarət mülkünü tikdi şəhidlər.*

Ən amansız qəddarlıqla həyata keçirilən qırğın nəticəsində həmin gecə heç bir günahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar vardı. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi. Xalqın bu ağır günlərində, yanvarın 21-də Ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, çıxış etdi, hər zaman Azərbaycan xalqı ilə birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə tarixi-siyasi qiymət verdi. Sovet rejiminin keçirdiyi vəhşi aksiyanın hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Heydər Əliyevin bu tarixi çıxışının mətni dünyada, o cümlədən Azərbaycanda geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

Xalq şairi Bəxtiyar Vahabzadə 20 Yanvar şəhidlərinin əsil qiymətini sözüylə, şeiriylə Azərbaycan xalqının tarixinə əbədilik olaraq həkk etdi.

*Onlar susdurulan haqqı dindirər,*
*Qaraca torpağı qiymətləndirər.*
*Donan vicdanları qeyrətləndirər,*
*Axı, el qeyrəti çəkdi şəhidlər.*
*Dözdü hər zillətə, dözdü hər şeyə,*
*"Dünyada mənim də haqqım var", - deyə.*
*Kütləni xalq edən müqaviləyə*
*Qanıyla qolunu çəkdi şəhidlər.*

Ardıcıllıqla izlədiyimiz poeziya nümunələri Bəxtiyar Vahabzadənin milli-mənəvi azadlıq yolunda yaradıcılıq manerası konturlarını gözlərimiz qarşısında canlandırır. Təbii ki, bu xətlərdən birini də "İstiqlal" poeması təşkil edir. İstiqlal poeması "Gülüstan" poemasının davamı olaraq şairin qeyd etdiyinə görə oxucuların xahişi ilə yazılıb. Bizə belə gəlir ki, 20 Yanvar faciəsindən sonra Azərbaycan xalqının müstəqillik qazanması, bu yolda qurban verdiyi şəhidlər və onların müqəddəs ruhu da eyni zamanda şairin yenidən bu mövzuya müraciət etməsinə bilavasitə vəsilə olmuşdur. Müstəqil Azərbaycan dövlətinin qurulması, Azərbaycan dilinin dövlət dili statusu qazanması, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq üç rəngli bayrağımızın dövlət rəmzinə çevrilməsi şair Bəxtiyarın sinəsini söz ilə doldurur, ilhamını qanadlandırırdı:

*Eşidib qəlbimin üsyan səsini,*
*Yazdım "Şəhidlər"in faciəsini:*
*"Dilək bir çiçək də bitirə bilməz*
*Bu gündən sabaha körpü olmasa.*
*Azadlıq ağacı bar verə bilməz*
*Şəhidlər qanıyla suvarılmasa . ..u*
*ş...O şənbə gecəsi gecikdi səhər*
*Zaman itirmişdi o gün sağ-solu.*
*Ömürdən keçərək, keçdi şəhidlər*
*Bir qanlı gecədə min illik yolu.*

Şairin özünün də etiraf etdiyi kimi, 20 Yanvar şəhidlərinin tarixi qəhrəmanlığı min illik bir azadlıq yolunu keçməyə bərabər idi. Ona görə də qırx il əvvəl yaranmış "Gülüstan" "Şəhidlər"in doğulmasına hamilədisə, "Şəhidlər" də "İstiqlal"ı dünyaya gətirdi.

Şair istiqlal qazanmaq ilə torpaq itirməyin acısını canından çıxarda bilmir. Axı, Böyük Azərbaycan dövlətinin Şah İsmayıl Xətaidən bizə miras qalmış torpaqlarını itirətirə babalarımızın ruhu qarşısında nə qədər günaha batdığımızı anlaya bilirikmi?! Bu gün cənublu-şimallı Azərbaycanın ortasından keçən Araz çayı nə qədər bizim yaralı köksümüzə məlhəm olmaq yerinə sərhəd dirəklərini sinəsinə saxlamaq məcburiyyətində qalacaqdır?! Beli donqar Xudafərin körpüsü hələ nə qədər ayaq səslərinin həsrətini çəkəcəkdir?!

Amma bütün bunlara baxmayaraq, şair "İstiqlal"ın sonunu nikbin notlar ilə bitirməyə çalışır. Eldə məsəl var, deyərlər ki, "su gələn arxa ümid var - bir də gələ" və ya "Su axdığı yerdən bir də axar". Şair də bu atalar sözünün işığında tarixi Böyük Azərbaycan dövlətinin bütövlüyünün nə zamansa baş tutacağı arzusu ilə poemanı bitirir:

*Salaq yadımıza bu gün, cahanın*
*Rəngləri dəyişən xəritəsini.*
*Biz də görəcəyik Azərbaycanın*
*Güneyli-qüzeyli xəritəsini.*

Sonda qırğız ədəbiyyatını böyük dühası Çingiz Aytmatovun Bəxtiyar Vahabzadə haqqında dediyi bir fikri xatırlatmaq istəyirəm: - "...Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda, bir necə kəlmə ilə "Həyat nədir?" sualına cavab axtaranda, yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğurulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir".

Nəticə olaraq deyə bilərik ki, Bəxtiyar Vahabzadənin bu üç poeması ayrı-ayrı zamanlarda yazılsa da, bir-birini tamamlayaraq, biri digərinin təməl daşına çevrilibdir. "Gülüstan", "Şəhidlər", "İstiqlal" üç alma kimi göydən düşməsə də, üç poetik nümunə kimi şair Bəxtiyar Vahabzadənin ədəbi irsinin ən layiqli mirası olaraq Azərbaycan poeziyasının şah əsərləri sırasına daxil olubdur.

**Nizami Muradoğlu**
**nizamimurad@gmail.com**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***